Ədəbiyyat QƏZETİ

# İslam QƏRİBLİ - 70



Hörmətli İslam müəllim!

Sizi - tanınmış ədəbiyyatşünas, yazıçı, pedaqoqu 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz Lerik rayonundakı Şingədulan kənd orta məktəbini əla qiymətlərlə (1969) və ADPU-nun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmisiniz (1975). Biləsuvar (1975-1979) və Lerik rayonlarında müəllim və məktəb direktoru olmuş (1979-1990), "Baş müəllim" adına layiq görülmüsünüz (1988).

2 dekabr 1990-cı ildə Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna işə dəvət olunmusunuz. Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsində kiçik elmi işçi (1990-1991), elmi işçi (1992-1995), böyük elmi işçi (1995), Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində böyük elmi işçi (1996-2001), aparıcı elmi işçi (2008-2014), baş elmi işçi (2014) vəzifələrində çalışmış, Yeni dövr Azərbaycan ədəbiyyyatı şöbəsinə müdir təyin olunmusunuz (2018). "Odlar Yurdu" Universitetində dosent (2001-2003), AMEA ak. Z.M.Bünyadaov adına Şərqşünaslıq İnstitutunda böyük elmi işçi vəzifələrində çalışmısınız (2003-2008).

Siz "Qızıl Qələm" Media Mükafatı Laureatı (2010), "Azərbaycan ziyalısı" (2017) diplomları, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun fəxri fərmanları (2014, 2016, 2017), AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "İlin alimi" diplomu (2020), AMEA Humanitar Elmlər bölməsinin fəxri fərmanı ilə (2018) və AMEA Rəyasət heyətinin fəxri fərmanları ilə (2022, 2024) təltif edilmisiniz.

"M.Hadinin "İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah" poeması" mövzusunda namizədlik (1990), "M.Hadinin ədəbi-bədii irsi Azərbaycan dövri mətbuatında (1905-1920)" (2013) mövzusunda doktorluq dissertasiyası müdafiə etmisiniz.

Bakıda "Ağçaydan başlanan yol" (1997), "Sönməyən ocaq" (1997), "Məhəmməd Hadinin "İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah" poeması" (2001), "Azərbaycan dili" (2002, 2003, 2006, 2009), "Məhəmməd Hadi yaradıcılığının "Həyat" və "Füyuzat" mərhələsi" (2009), "Məhəmməd Hadi və mətbuat (1905-1920)" (2011), "Gecikmiş görüş" - şeirlər (2012), "Mən bir kitab, hər vərəqim min kitabdır" (2013), "Ədəbiyyat sərhəd tanımır" (2014), "Sözün sehri" (2014), "Hüseynbala Mirələmov: tarix və müasirlik" (2016) və s. kitablarınız nəşr olunmuşdur.

On cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin beş və altıncı cildlərinin məsul redaktoru, 5, 6 və 9-cu cildlərin əsas müəlliflərindənsiniz (Bakı: "Elm" nəşriyyatı, 2021, 2021, 2022).

Bir çox beynəlxalq və respublika elmi konfranslarında məruzə ilə çıxış etmiş, mətbuat səhifələrində iki yüzdən yuxarı elmi əsəriniz çap olunmuşdur.

Hörmətli İslam müəllim!

Sizi 70 illik yubileyiniz münasibətilə bir daha təbrik edir, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**